

Nigar Pirimova
*teatrşünas*

**Hələ cavan idi. Yaşasaydı 55 illiyini qeyd edəcəkdi. Yaşasaydı hələ çox yaradacaq, tamaşalar hazırlayacaq, gözəl arzularını gerçəkləşdirəcəkdi. Ancaq ölüm gələndə xəbər etmir ki, nə cavana baxır, nə də qocaya. Hər il ad gününü dostlarıyla, ailəsiylə bərabər qeyd edən Maarif müəllim bu ilki doğum gününə hamını toplasa da özü gəlmədi, gələ bilmədi. Ruhu orada olsa da, cismi iştirak etmədi, edə bilmədi...**



# Maarif Məmmədovun xatirə gecəsi keçirildi



2 noyabr Teatr Xadimləri İttifaqının zalında Maarif Məmmədovun 55 illik yubleyi ailəsi, dostları, yaxın qohumları, sənət adamları tərəfindən qeyd olundu. Xatirə gecəsi teatr tamaşası kimi qurulmuşdu. Xatirə gecəsi əvvəldən axıradək Maarif Məmmədovun əmisi oğlu, əməkdar artist Ayşad Məmmədov və yaxın dostu, aktyor Natiq Fərzəliyevin aparıcılığı ilə keçdi. Maarif Məmmədovu oynayan Ayşad Məmmədov tamaşa boyu dostu Natiqlə söhbətləşir, dərdləşir, ailəsindən, yazılarından danışırdı. Söz kimdən, yaxud nədən düşürdüsə Natiq Fərzəliyev: "Ürəyin bunu istəyir, eləsə gəl filankəsi dinləyək" deyərək səhnədən çəkilir və ailəsindən, dostlarından kiməsə söz verirdilər. Demək olar ki, səhnəyə çıxan bütün dostları əvvəlcə Maarif Məmmədovun ssenarisindən çıxış edib qısa tamaşalar göstərir, sonra onu təbrik edirdilər. Hər dəfə səhnəyə çıxan sənət dostları onun yoxluğunu qəbul etməyin, onsuz ad gününü keçirməyin nə qədər ağır olduğunu vurğulasalar da, hamısı bu günü qəmli keçirməmək üçün əllərindən gələni edirdilər.

Çıxışlar sırasında ən yadda qalanlardan biri aktyor Anar Heybətovun çıxışı oldu. O, "Mənə elə gəlir ki, bu günkü günü qəmli notlarla qeyd etməməliyik. Çünki inanıram ki, bura gələn hər kəs Maarifi yaxşı tanıyırdı, onun qələminə yaxşı bələd idi" - deyib, vaxtı ilə Maarif Məmmədovun onun üçün yazdığı yumoristik monoloqunu söylədi və xatirə gecəsinə bir şənlik qatdı.

Daha sonra Maarif Məmmədovun həm sənətdə, həm də həyatda yaxın dostları Çingiz Əhmədov və Rəhman Rəhmanov çıxış etdilər. Öz çıxışında Çingiz Əhmədov bildirdi ki, hələ 80-ci illərdə Maarif Məmmədov "Ordan burdan" adlı televiziya proqramı yaratmışdı və hər həftənin bazar günləri Azərbaycan Televiziyasında göstərilirdi, seyrçilərə gülüş bəxş edirdi. 90-cı illər hadisələrinə görə bir müddət bu proqram bağlansa da, sonra yenidən ekranlara çıxdı.

Mənim yadımdadır, hələ lap balaca olanda o verilişi necə səbirsizliklə gözləyərdim. Heç bilməzdim ssenarisi kimindir, kim yazır, necə ərsəyə gəlir. Sadəcə bir onu bilirdim ki, Azərbaycan telekanallarında ilk qadın obrazlarını yaradan Çingiz Əhmədov və Rəhman Rəhmanov idi. Amma sən demə bütün bunların səbəbkarı Maarif Məmmədov imiş.

Çingiz Əhmədov və Rəhman Rəhmanov ürək sözlərini söylədikdən sonra Maarif Məmmədovun yazdığı maraqlı və gülməli əhvalatlardan səhnəciklər oynayıb bütün zalı gülüşə qərq etdilər.

Tamaşalardan sonra səhnədəki böyük ekran vasitəsilə Maarif Məmmədovun özünün iştirakı ilə çəkilmiş video çarxlar izləndi.

Daha sonrakı çıxış edən Orxan Fikrətoğlu, Allahverdi Yolçuyev və digərləri danışdılar da, oynadılar da. Hətta qızı Jalə də səhnəyə gələrək atasını təbrik etdi, kövrək səsiylə sonda bircə şeyi peşmançılıq hissi ilə qeyd etdi ki, vaxtilə atası onu səhnədə görmək istəsə də utandığından heç zaman səhnəyə çıxmayıb, lakin bu gün onun yoxluğunda ilk dəfə səhnəyə çıxır. Ancaq atasının ona vəsiyyət etdiyi bütün yazılarını qoruyacağına, üzə çıxaracağına söz verdi.

Maarif Məmmədovun həyat yoldaşı Sədaqət xanım xatirə gecəsinə bu sözlərlə yekun vurdu: "Mən sizin hamınıza təşəkkür edirəm ki, bu gün Maarifin ad gününə yığışdıq. Mən Ayşad Məmmədovu xüsusilə qeyd etmək istəyirəm. O, bu gecə Maarifi yaşatdı. Biz çox istəyirdik ki, bu ad gününü qeyd edək. Ona görə də mən Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi Əlikram Əliyevə xüsusi təşəkkür edirəm. Həmçinin idarənin bütün əməkdaşlarına. Bu günü bizə yaşatdığınıza görə çox sağ olun!".

# Kukla Teatrında böyüklər üçün tamaşa

**Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında tam yeni və maraqlı bir tamaşanın məşqlərinə start verilib. Bu dəfə uşaqların sevimli məkanında böyüklər üçün tamaşa hazırlanır.**

İdeya müəllifi və rejissoru teatrın baş rejissoru Qurban Məsimov olan səhnə nümunəsi "Melodiya" adlanır. Bütövlükdə ailə dramı olan tamaşa həm canlı plan, həm də cansız əşyaların hərəkətə gətirilməsindən - zivədə asılan qadın və kişi paltarının aktyorların oyununa daxilindən ibarətdir. Beləcə bütün hekayətin məğzini daha çox iki geyim danışır.

Müəyyən dram elementlərinin olduğu sözsüz tamaşada musiqi tərtibatı səhnə işinin əhvalına uyğun olaraq mərhum pianoçu-bəstəkar Vaqif Mustafazadənin əsərləri əsasında qurulub.

Maraqlı ideyası olan tamaşa barədə ətraflı məlumat verən baş rejissor bu nümunə ilə hər bir problemin həllində anlaşmanı və sevgini qabarıq göstərmək istədiyini deyir: "Aktyorların kuklaları olan bu geyimlər "dilə" gəlməklə sanki böyük bir məhəbbətdən, sevgi hekayəsindən, eləcə də aralarındakı münaqişədən, küskünlükdən, hətta qopmaq, ayrılmaq həddindən danışır. Zivədən asılmış geyimləri tərpədən xəfif külək onları yenidən hərəkətə gətirir və beləcə yatmış hisslər canlanır, onlara sevgilərini, keçmiş gözəl anlarını xatırladır, sanki münasibətləri bərpa edir. Sevgi nağılından sonra zivədən həmin paltarları yığan qadın bir də uşaq geyiminə rast gəlir. Beləcə sehrli dillə qadınla kişi arasındakı problemin məhz uşaq vasitəsilə həll olunduğu və beləcə uşaqların ailələrin səadətində əsas rolu göstərilir".




Həll etibarilə daha çox festivallar üçün nəzərdə tutulan tamaşanın rəssamı Rəvanə Yaqubovadır. Səhnə işində obrazları Samirə Nəcəfova və Rəhim Rəhimov canlandırırlar.

İnsanlara məhəbbətin hər mənəni aşa biləcəyini, eləcə də uşaqların ailələrin xilasında, biribirini qəbul etməsində əsas vasitə olduğunu göstərən 45 dəqiqəlik tamaşa noyabrın sonlarında təqdim olunacaq.